| Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 01 aprel 2015-ci il tarixli, 20/01-001 №-li Qərarı ilə təsdiq edilib | Azərbaycan Respublikasının Dövlət Tikinti Normaları | AzDTN 1.6-2 |
|---|---|---|
| | **Tikintinin təşkili** | İlk dəfə tətbiq olunur |

## 1. Tətbiq sahəsi

AzDTN 1.6-2 "Tikintinin təşkili" Azərbaycan Respublikasının dövlət tikinti normaları (*bundan sonra – AzDTN*) müvafiq qaydada verilmiş tikintiyə icazə əsasında yeni bina və qurğuların *(bundan sonra – tikinti obyektləri)* inşasına, mövcud tikinti obyektlərinin yenidən qurulmasına və sökülməsinə, eləcə də ərazilərin abadlaşdırılmasına və mühəndis hazırlığına şamil olunur.

Elektrikötürücü xətlər, rabitə xətləri, boru kəmərləri və digər texniki infrastruktur obyektləri, o cümlədən dəmiryolu zolağında, avtomobil yolları və digər nəqliyyat yolları üçün ayrılmış zolaqlarda bu növ obyektlər inşa edilərkən əlavə olaraq şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələbləri nəzərə alınmalıdır.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi infrastruktur obyektlərinə, dövlət sirri təşkil edən obyektlərə, radioaktiv və partlayıcı maddə və materialların istehsal, emal olunduğu və saxlandığı obyektlərə, habelə atom enerjisindən istifadə sahəsində nüvə və radiasiya təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tələblərin irəli sürüldüyü obyektlərə münasibətdə dövlət sifarişçiləri və ya həmin obyektlərdə təhlükəsizliyin təmin edilməsi üzrə səlahiyyətli icra hakimiyyəti orqanları tərəfindən və dövlət satınalma müqavilələri ilə müəyyən edilmiş tələblərə riayət olunmalıdır.

Bu AzDTN Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin (*bundan sonra – Məcəllə*) 79-cu və 80-ci maddələrinə əsasən tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinə və barəsində məlumatlandırma icraatının tətbiq olunduğu yaşayış evlərinə şamil edilmir.

Bu AzDTN həmçinin inşaat sənayesi və inşaat materiallarının sənayesi müəssisələrində materialların, məmulat və konstruksiyaların istehsalına şamil edilmir.

## 2. Normativ istinadlar

Bu AzDTN-də istinad edilən normativ hüquqi aktların siyahısı A əlavəsində verilmişdir.

## 3. Termin və təriflər

Bu AzDTN-də Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyinə uyğun olaraq termin və təriflərdən istifadə edilmişdir:

1) ***tənzimləmə (ayırma) xətləri*** - tikinti obyektlərinin qırmızı xətdən və ya torpaq sahəsinin sərhədindən şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun olaraq yerləşdirilməsi xətləridir;

2) ***üstü örtülən işlər*** - tikintinin növbəti mərhələlərində üstü örtülməsi səbəbindən naturada yoxlanılması tam və ya qismən mümkün olmayan iş növləridir (özülün torpaqla doldurulması, hidroizolyasiya işləri, armaturlanmış konstruksiya elementlərinin betonlanması və s.);

3) ***vəziyyət planı*** - layihələndirilən tikinti obyektinin yaşayış məntəqəsində yerləşməsini əks etdirən və yanaşı ərazinin şəhərsalma xüsusiyyətlərini nəzərə alan (tikinti ərazisinin hüdudları, ərazidə əsas bina və qurğuların yerləşməsi, mühəndis-kommunikasiya təminatı və nəqliyyat infrastrukturu və s.) sxematik plandır;

4) ***dayaq geodeziya şəbəkəsi*** - ərazidə geodeziya işlərinin (topoqrafiya çəkilişləri və geodezik ölçmələr də daxil olmaqla) aparılması zamanı dayaq (geodeziya) məntəqələri kimi istifadə olunan və müəyyən qaydada seçilərək ərazidə yerləşdirilən (xəritəyə köçürülən) şərti nöqtələr sistemidir;

5) ***müayinə*** - obyektlərin istismar vəziyyətini, yararlığını və işlək qabiliyyətini xarakterizə edən və onların gələcək istismar və ya bərpa-gücləndirilmə imkanlarının müəyyənləşdirilməsi və dəyərləndirilməsi üçün aparılan kompleks elmi-tədqiqat araşdırmaları.

## 4. Ümumi müddəalar

4.1. Tikinti obyektlərinin inşası yalnız Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyinə uyğun olaraq verilmiş tikintiyə icazə əsasında aparılır.

4.2. Tikinti fəaliyyəti subyektlərinin hərəkətləri qüvvədə olan qanunvericiliyin tələblərinə, tikinti prosesində yerinə yetirilən işlər, onların nəticələri və tikintisi başa çatmış tikinti obyektləri isə layihəyə, ərazi planlaşdırılması sənədlərinə (baş planlara və müfəssəl planlara) cavab verməlidir.

4.3. Sifarişçi bu AzDTN-nin 4.4-cü, 4.6-cı bəndlərində göstərilən və müqavilələrlə digər tikinti fəaliyyəti subyektinə həvalə olunmayan vəzifələrin icrasını təmin etməlidir.

4.4. Sifarişçinin əsas vəzifələri aşağıdakılardır:

- tikintiyə icazənin alınması;
- tikinti obyektinin inşasına podratçının (baş podratçının) cəlb olunması;
- Məcəllənin 89-cu maddəsində nəzərdə tutulmuş tikinti layihələri istisna olmaqla, digər tikintilərin ekspertizadan keçmiş və müvafiq qaydada təsdiq edilmiş layihə sənədləri ilə təmin edilməsi;
- tikinti ərazisində tənzimləmə (ayırma) xətlərinin naturaya köçürülməsi və geodezik bölgü əsasının yaradılması;
- tikintiyə texniki nəzarətin və müəllif nəzarətinin həyata keçirilməsinin təmin edilməsi;
- tikinti işlərinin başlanması barədə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin məlumatlandırılması;

- Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən tərtib olunmuş Tikintidə Dövlət Nəzarəti Jurnalının alınması və daimi tikinti obyektində sifarişçinin məsul nümayəndəsində səliqəli vəziyyətdə saxlanılması;
- tikinti obyektinin inşası başa çatdıqdan sonra onun istismarına icazə ilə bağlı yerli icra hakimiyyəti orqanına müraciət edilməsi;
- texnoloji avadanlığın və ya mühəndis-kommunikasiya təminatı xətlərinin sınaqdan keçirilməsi (buraxılış-sazlama işləri) və tikinti obyektinin istismarına icazə ilə bağlı Məcəllədə nəzərdə tutulmuş digər tədbirlərin həyata keçirilməsi;
- tikintinin başlanması, dayandırılması və ya konservasiyası barədə qərarların qəbulu;
- Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda tikintisi başa çatmış obyektin istismarına icazə ilə bağlı Məcəllənin 102.1-ci maddəsində nəzərdə tutulmuş sənədlərin yerli icra hakimiyyəti orqanına təqdim edilməsi;
- tikinti ilə bağlı zəruri məlumatların, tikinti sənədlərinin (şəhadətnamələr, sertifikatlar, aktlar və s.) əsli və ya surətlərinin Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə təqdim olunması;
- icra və istismar sənədlərinin komplektləşdirilməsi, saxlanması və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim olunması.

4.5. Sifarişçi tikintini müvafiq qaydada ekspertizadan keçmiş və razılaşdırılmış layihə sənədləri ilə təmin etmək, tikintiyə icazənin alınması üzrə vəzifələrini, habelə tikinti aparılarkən öz sifarişçi vəzifələrini müqavilə əsasında yerinə yetirmək, tikintiyə texniki nəzarəti həyata keçirmək və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və yerli icra hakimiyyəti orqanı ilə qarşılıqlı surətdə əlaqə yaratmaq məqsədilə qüvvədə olan qanunvericiliyə uyğun olaraq ixtisaslaşmış təşkilatı (podratçını, layihəçini və hüquqi şəxs statuslu digər subyekti) və müvafiq ixtisasa malik mütəxəssisi (vəkil edilmiş səlahiyyətli nümayəndəni) cəlb edə bilər.

Sifarişçinin öz vəzifələrinin cəlb olunmuş təşkilat və ya mütəxəssisə verilməsi onlar arasında bağlanmış müqavilə ilə rəsmiləşdirilir.

4.6. Podratçı (baş podratçı), tikintini bilavasitə aparan şəxs kimi, aşağıdakı təşkilati vəzifələri yerinə yetirir:

- tikintinin və tikinti-quraşdırma işlərinin layihəyə uyğun olaraq, şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə əməl edilməklə həyata keçirilməsini təmin etmək, obyektin konstruksiyalarını inşa etmək və mühəndis-texniki təminat sistemlərini quraşdırmaq;
- Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən hallarda texnoloji sənədləri hazırlamaq və tətbiq etmək;

- tikintidə daxili əməliyyat nəzarətini, o cümlədən istifadə olunan tikinti materiallarının və məmulatının standartların, texniki şərtlərin və layihənin tələblərinə uyğunluğuna nəzarəti həyata keçirmək;
- tikinti işlərinin həyata keçirilməsi ilə bağlı şəhərsalma və tikintiyə dair normativ sənədlərdə nəzərdə tutulmuş müvafiq sənədləri tərtib etmək;
- tikinti meydançasının idarə olunmasını və mühafizəsini təşkil etmək, tikinti meydançasında yanğın təhlükəsizliyini, təhlükəsiz əmək və zəruri sanitariya-gigiyena şəraitini, tikinti meydançasında və bitişik ərazilərdə ətraf mühitin mühafizəsini, tikinti meydançasının bilavasitə yaxınlığında yaşayan, istirahət edən və ya hərəkət edən insanların tikinti işləri ilə bağlı yarana bilən təhlükələrdən müdafiəsini, tikinti texnikasının və mexanizmlərinin təhlükəsiz istismarını təmin etmək;
- dövlət nəzarətinin, texniki nəzarətin və müəllif nəzarətinin həyata keçirilməsi zamanı tikintidə aşkar olunmuş qüsurları və pozuntuları aradan qaldırmaq;
- qəzaların qarşısının alınması üçün tələb olunan tədbirləri görmək;
- qəza haqqında Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və yerli icra hakimiyyəti orqanına, sifarişçiyə və layihəçiyə dərhal məlumat vermək və qəzanın səbəblərinin araşdırılması məqsədilə qəza ərazisinin mühafizəsini təmin etmək.

4.7. Ekspertizadan keçirilmiş tikinti layihələrinə konstruktiv və dayanıqlığa təsir edə biləcək dəyişikliklər edildikdə, layihə sənədlərini hazırlayan şəxs (*bundan sonra – layihəçi*) həmin layihələri şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması və tikinti obyektlərinə ayrılmış vəsaitlərin səmərəli istifadəsinin qiymətləndirilməsi (dövlət vəsaitləri hesabına maliyyələşdirilən obyektlərin smetaları üçün) üçün təkrar ekspertizaya təqdim edir.

Layihəçinin tikinti prosesində yerinə yetirməli olan əsas vəzifələrinə aşağıdakılar aiddir:

- tikinti layihəsinin rəhbərini (baş memarını və ya baş mühəndisini) təyin etmək və bu barədə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və yerli icra hakimiyyəti orqanına məlumat vermək;
- tikinti layihəsinin Məcəllənin, şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun hazırlanmasını təmin etmək və buna görə cavabdehlik daşımaq;
- sifarişçinin, yerli icra hakimiyyəti orqanının və texniki şərtləri müəyyən edən təchizat müəssisələrinin iradları əsasında layihədə müvafiq dəyişikliklərin aparılmasını təmin etmək və dəyişdirilmiş layihəni müəyyənləşdirilmiş qaydada razılaşdırmaq;

- ekspertiza müəssisəsinin iradları əsasında tikinti layihəsində müvafiq dəyişikliklər etmək;
- tikintinin və tikinti-quraşdırma işlərinin layihəyə uyğun aparılmasına müəllif nəzarətini həyata keçirmək, aşkar edilmiş qüsurlar və pozuntular barədə sifarişçiyə və podratçıya məlumat vermək;
- tikinti obyektinin istismara verilməsində iştirak etmək.

4.8. Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyinə görə tikinti Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və yerli icra hakimiyyəti orqanının nəzarəti altında aparılır. Sifarişçi tikintidə nəzarəti həyata keçirmək məqsədilə həmin orqanları tikinti meydançasında tikinti işlərinə başlama tarixi, tikintinin dayandırılması, konservasiyası və (və ya) başa çatdırılması, habelə obyektin istismara verilməsi barədə qabaqcadan məlumatlandırmalıdır.

4.9. Tikinti başa çatdıqdan sonra tikinti obyektinin qüvvədə olan qanunvericiliyin, şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə və layihəyə uyğunluğu yoxlanılır, o cümlədən tikintisi başa çatmış tikinti obyektinin istismarına icazə alınır.

4.10. Tikintiyə nəzarət ölçmələrin vəhdətinin təmin edilməsi üzrə normativ sənədlərin (metroloji qayda və normaların) tələblərinə uyğunluğu təsdiq edilmiş və dövlət sınaqlarından keçirilməklə tipi təsdiq edilmiş ölçmə vasitələrindən istifadə edilməklə aparılmalıdır. Nəzarət sınaqları və ölçmələri ixtisaslaşmış heyət tərəfindən yerinə yetirilməlidir.

## 5. Tikintiyə hazırlıq

5.1 Sifarişçi tikintini həyata keçirmək məqsədilə müqavilə əsasında tikinti işlərinin mövcud qanunvericiliyə uyğun olaraq yerinə yetirilməsinə podratçını (baş podratçını) cəlb edir.

5.2. Tikinti fəaliyyətinin subyektləri (sifarişçi, podratçı, layihəçi) tikintiyə görə fərdi məsuliyyət daşıyan aşağıdakı şəxsləri sərəncamverici sənədlər (əmrlər) əsasında təyin edirlər:

- sifarişçi - texniki nəzarətin məsul nümayəndəsini;
- podratçı (baş podratçı) – işlərin məsul icraçısını;
- layihəçi – tələb olunduğu hallarda müəllif nəzarətinin məsul nümayəndəsini.

Qeyd olunan məsul şəxslər Məcəllənin 51-ci maddəsinə uyğun olaraq tikinti fəaliyyətinin peşə sahələri ilə bağlı xüsusi tələblərə cavab verməli və peşəkarlıq səviyyəsinin müvafiq peşə standartlarının tələblərinə uyğunluğunu və peşə yararlığını təsbit edən peşəkarlıq sertifikatına malik olmalıdırlar.

Sifarişçinin və podratçının funksiyaları eyni hüquqi şəxs tərəfindən yerinə yetirildikdə, tikintiyə məsul şəxslər təşkilatın rəhbəri tərəfindən təyin

olunurlar. Podratçının və texniki nəzarətçinin vəzifələrinin eyni təşkilat və ya şəxs tərəfindən həyata keçirilməsinə yol verilmir.

5.3. Podratçı, tikintisinə icazə tələb olunmayan və məlumatlandırma icraatı istisna olmaqla, bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən verilən xüsusi razılığa (lisenziyaya) malik olmalıdır. Podratçı lisenziya tələblərinə və şərtlərinə riayət etməyə, habelə xüsusi razılıqda (lisenziyada) nəzərdə tutulmuş iş növlərinin yerinə yetirilməsi zamanı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin tələb və göstərişlərini nəzərə almağa borcludur.

5.4. Sifarişçi tikinti obyektinə və ya işlərin müəyyən mərhələlərinə dair təsdiq etdiyi (məsul şəxsin imzası və hər vərəqəsində ştampla rəsmiləşdirdiyi) tikinti layihəsini (işçi layihəsi də daxil olmaqla) iki nüsxədə, elektron və kağız daşıyıcılarında podratçıya (baş podratçıya) təqdim edir. Podratçıya təqdim olunan tikinti layihəsinin tərkibi və bölmələrinin məzmunu Məcəllənin 83-cü maddəsinə, habelə tikinti obyektlərinin, o cümlədən magistral boru kəmərləri (su, kanalizasiya, qaz, neft kəmərləri və s.) və kommunikasiyalarının (elektrik, rabitə xətlərinin və s.) layihələndirilməsi və tikintisi üzrə texniki normativ hüquqi aktların (Azərbaycan Respublikasında qüvvədə olan Tikinti Normativ sənədlərinin Siyahısı) tələblərinə cavab verməlidir. Təqdim olunan layihə sənədlərində tikinti layihəsinin layihəçi tərəfindən Məcəlləyə, layihə tapşırığına və tikinti obyektlərinin etibarlılıq göstəricilərini, yanğın və partlayış təhlükəsizliyini, təbii və texnogen xarakterli təhlükəli (zərərli) təsirlərdən müdafiə tələblərini, tikinti materiallarının, məmulat və konstruksiyalarının keyfiyyət və uyğunluğunu müəyyənləşdirən texniki normativ hüquqi aktların (Azərbaycan Respublikasında qüvvədə olan Tikinti Normativ sənədlərinin Siyahısı) tələblərinə uyğun şəkildə hazırlanmasına dair təminat öz əksini tapmalıdır.

5.5. Podratçı tikinti işlərinin həyata keçirilməsi ilə bağlı ona təqdim olunmuş sənədləri ilkin olaraq yoxlayır, sənədlərdə aşkar edilmiş qüsurların siyahısını sifarişçiyə təqdim edir və onların aradan qaldırılmasına nəzarət edir.

Eyni zamanda podratçı yeni texnoloji üsulların və avadanlığın tətbiq edilməsi zərurətini, tikinti layihəsi ilə nəzərdə tutulmuş materialların, məmulat və avadanlığın əldə olunması imkanını müəyyənləşdirərək, habelə tikinti meydançasını elektrik enerjisi, su, istilik və buxarla təmin etmək üçün tikinti layihəsində göstərilmiş müvəqqəti mühəndis kommunikasiyalarının (şəbəkələrinin) faktiki yerləşmə nöqtələrinin və xarici mühəndis-texniki təminat şəbəkələrinə qoşulma şərtlərinin uyğunluğunu nəzərdən keçirərək, layihənin həyata keçirilməsi mümkünlüyünü yoxlayır.

5.6. Əməyin, ətraf mühitin mühafizəsi və insanların təhlükəsizliyinin təmin edilməsi sahəsində qanunvericiliyin tələblərinin tikinti prosesində

əməl olunması şərtləri, eləcə də tikinti işlərinin layihəyə, şəhərsalma və tikintiyə dair normativ sənədlərə və (və ya) müqavilə şərtlərinə uyğun yerinə yetirilməsini qiymətləndirmək üçün bütün nəzarət növlərinin həyata keçirilməsi imkanı layihənin tikinti işlərinin təşkili bölməsində və təşkilati-texnoloji sənədlərdə müəyyən edilir.

5.7. ***Tikinti layihəsinin tikinti işlərinin təşkili və texnologiya bölməsinə aid olan sənədlər***

5.7.1. İstehsalat və qeyri-istehsalat təyinatlı obyektlər üzrə tikintinin təşkilinə dair həllər layihənin tikinti işlərinin təşkili bölməsində, tikinti obyektləri söküldükdə isə tikinti obyektinin sökülməsi layihəsində hazırlanır. Tikinti işlərinin təşkili bölməsi tikinti layihəsinin ayrılmaz tərkib hissəsi olmaqla, tələblərinə sifarişçi, layihəçi və podratçı tərəfindən mütləq riayət olunmalıdır.

Tikintinin təşkilinə dair həllər meyarlarla qiymətləndirmə, modelləşdirmə üsullarından və müasir kompüter texnologiyalarından istifadə edilməklə ətraflı təhlil əsasında seçilir.

5.7.2. Təşkilati-texnoloji sənədlərə tikinti işlərinin yerinə yetirilməsi layihəsi, eləcə də tikinti-quraşdırma işlərinin texnologiyasına dair həlləri özündə əks etdirən, müvafiq qaydada tərtib olunmuş, razılaşdırılmış, təsdiq edilmiş və qeydiyyata alınmış digər sənədlər aiddir.

5.7.3. Tikinti işlərinin yerinə yetirilməsi layihəsi, eləcə də tikinti-quraşdırma işlərinin texnologiyasına dair həlləri özündə əks etdirən digər sənədlər podratçı tərəfindən təsdiq edilir.

5.7.4. Tikinti işlərinin yerinə yetirilməsi layihəsi aşağıdakı hallarda tam həcmdə hazırlanmalıdır:

- şəhər ərazisində tikinti aparıldıqda;
- fəaliyyət göstərən müəssisələrin ərazisində tikinti aparıldıqda;
- tikinti işləri mürəkkəb təbiət və geoloji şəraitlərdə, habelə mürəkkəb texniki tikinti obyektləri inşa edildikdə.

Torpaq sürüşməsi təhlükəsi olan ərazilərdə tikinti işlərinin aparılmasına icazə verən yerli icra hakimiyyəti orqanları torpaq sürüşməsinə qarşı mövcud tikinti norma və qaydalarına uyğun mühəndisi tədbirlər nəzərdə tutulmaqla hazırlanmış layihələri Məcəllənin 75.4-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılmalıdırlar.

5.7.5. Tam həcmdə hazırlanan tikinti işlərinin yerinə yetirilməsi layihəsinə aşağıdakılar daxildir:

- tikinti obyektində işlərin təqvim üzrə yerinə yetirilməsi planı (qış mövsümü də daxil olmaqla);
- tikinti ərazisinin baş planı;

- inşaat konstruksiyalarının, materiallarının, məmulat və avadanlığın obyektə daxil olması qrafiki;
- işçilərin obyektdə hərəkəti qrafiki;
- inşaat texnikasının obyektdə hərəkəti qrafiki;
- iş növlərinin yerinə yetirilməsinə dair texnoloji xəritələr;
- geodezik nişanların yerləşmə sxemləri;
- geodeziya işlərinin yerinə yetirilməsinə, müvəqqəti su, istilik, enerji təchizatı şəbəkələrinin quraşdırılmasına, tikinti meydançasının və iş yerlərinin işıqlandırılmasına dair həlləri; işlərin təşkilinin mobil formalarının tətbiqi üzrə əsaslandırmaları və tədbirləri; iş və istirahət rejimlərini; enerji resurslarına olan tələbatı; inşaatçılar üçün şəhərciklərin və mobil (inventar) binaların inşası zərurətini; tikinti meydançasına gətirilmiş məmulatın, materialların, konstruksiya və avadanlığın qorunub saxlanmasına üzrə tədbirləri; ətraf mühitin qorunması, əməyin mühafizəsi və tikintidə təhlükəsizliyin təmin edilməsi ilə bağlı tədbirləri; texniki-iqtisadi göstəriciləri özündə əks etdirən izahat yazısı.

Hissələrlə hazırlanan tikinti işlərinin yerinə yetirilməsi layihəsinə aşağıdakılar daxildir:

- tikinti ərazisinin baş planı;
- ayrı-ayrı iş növlərinin yerinə yetirilməsinə dair texnoloji xəritələr (sifarişçi ilə razılaşdırmaqla);
- geodezik nişanların yerləşmə sxemləri;
- ətraf mühitin qorunması, əməyin mühafizəsi və tikintidə təhlükəsizliyin təmin edilməsi ilə bağlı tədbirləri özündə əks etdirən izahat yazısı.

5.7.6. Tikinti işlərinin yerinə yetirilməsi layihəsinin hazırlanması üçün tələb olunan sənədlər aşağıdakılardır:

- sifarişçinin layihə tapşırığı (tikinti obyekti, onun hissələri üçün layihənin hazırlanması zərurəti əsaslandırılmaqla, tikinti işlərinin növü və layihənin hazırlanma müddəti göstərilməklə);
- layihənin tikinti işlərinin təşkili bölməsi;
- konstruksiyaların, hazır məmulatın, materialların və avadanlığın tədarük edilməsi, inşaat maşınlarından və nəqliyyat vasitələrindən istifadə olunması, tikinti fəaliyyətinin peşə sahələri üzrə peşəkarlıq sertifikatına malik kadrların cəlb edilməsi, işlərin yerinə yetirilməsi üçün podratın müəyyənləşdirilməsi, texnoloji-istehsalat komplektasiyaların (dəstlərinin) tətbiq edilməsi və yüklərinin daşınması üsulları, tikintinin növbəli üsulla aparılmasının təşkili;
- tikinti obyektlərində yenidənqurma işlərinin yerinə yetirilməsi zamanı aparılan müayinənin materialları və nəticələri, eləcə də istehsalat şəraitində tikinti, quraşdırma və xüsusi tikinti işlərinin yerinə yetirilməsinə dair tələblər.

5.7.7. Tikinti işlərinin yerinə yetirilməsi layihəsinin həlləri tikinti obyektlərinin təhlükəsiz istismarı ilə bağlı tələbləri təmin etməlidir.

Layihəçi və sifarişçi ilə razılaşdırmadan tikinti işlərinin yerinə yetirilməsi layihəsində tikintinin təşkili layihəsinin həllərindən kənarlaşmalara yol verilmir.

5.7.8. Bu AzDTN-nin 5.7.4-cü yarımbəndində nəzərdə tutulmuş hallardan başqa, obyektin inşası üçün tikinti işlərinin yerinə yetirilməsi layihəsi hazırlanmır. Bu zaman tikinti ərazisinin və obyektinin yanğından, təbii və ya texnogen xarakterli təhlükəli təsirlərdən mühafizəsi, habelə tikinti texnikasının və mexanizmlərinin təhlükəsiz istismarı ilə bağlı həllər ayrıca sənəd (sənədlər) şəklində podratçı tərəfindən şəhərsalma və tikintiyə dair normativ sənədlərə uyğun olaraq tərtib olunur.

5.7.9. Fəaliyyət göstərən müəssisənin ərazisində tikinti işlərinin yerinə yetirilməsi layihəsi həmin müəssisəni idarə edən təşkilatla razılaşdırılmalıdır.

5.8. Sifarişçi, tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işlərinin yerinə yetirilməsi üçün xüsusi razılığa (lisenziyaya) malik fiziki və hüquqi şəxsləri mühəndis-axtarış işlərinin müvafiq növlərinin (mühəndis-geodeziya işləri, mühəndis-geoloji axtarış işləri, mühəndis-hidrogeoloji axtarış işləri, geofiziki işlər, qruntların laboratoriya tədqiqatları) yerinə yetirilməsinə cəlb edir. Mühəndis-axtarış işlərinin icraçıları (podratçılar), sifarişçi ilə bağlanan müqavilənin şərtlərinə uyğun olaraq, geodezik məntəqələr (mərkəzlər) yaratmaq, mədən-qazma işləri aparmaq (buruq quyularının, şurfların və s. qazılması), stasionar müşahidə şəbəkələri yaratmaq, torpaq və qruntlardan, havadan, səthi və yeraltı sulardan, atmosfer yağıntılarından və sənaye tullantılarından nümunələr götürmək, mühəndis-axtarış işlərinin aparılması üçün lazım olan hazırlıq və əlaqədar işləri (meydançaların təmizlənməsi və planlaşdırılması, nişanlama cihazlarının quraşdırılması, sukənarlaşdırıcıların və novların yerləşdirilməsi, yolların, keçidlərin, bərələrin və digər müvəqqəti qurğuların inşası) yerinə yetirmək hüququna malikdirlər. Mühəndis-axtarış işləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 may tarixli 146 nömrəli qərarı ilə təsdiq edilmiş “Mühəndis-axtarış işlərinin yerinə yetirilməsi Qaydaları”na uyğun olaraq yerinə yetirilməlidir.

5.9. Podratçı tikintiyə daxili əməliyyat nəzarətinin aparılması barədə müvafiq qeydlərin təşkilati-texnoloji sənədlərdə əks olunub-olunmadığını yoxlamalıdır.

5.10. Podratçı layihə əsasında tikinti obyektinin oxlarının yerləşdirilməsi sxemlərini, bu oxların və montaj səmtlərinin bağlanma nişanlarını, eləcə də konstruksiyaların və onların elementlərinin naturada verilmiş ox və səmtlərinə nisbətdə yerləşməsi sxemlərini hazırlamalıdır. Sxemlər elə hazırlanmalıdır ki, naturada verilmiş oxlar və səmtlər tikintinin bütün mərhələlərində konstruksiya elementlərinin yerləşmə dəqiqliyi yoxlanılarkən müşahidələr üçün əlverişli olsun. Eyni zamanda geodezik bölgü işlərinin yerinə yetirilməsi və dəqiqliyinə nəzarət metodikası, habelə montaj

səmtlərinin çəkilməsi və bağlanması qaydaları təshih edilməli və ya yenidən işlənməlidir.

5.11. Podratçı (baş podratçı) işçi heyətinin tədrisini təşkil etməli və özünün yerinə yetirmək iqtidarında olmadığı sınaqları aparmaq üçün akkreditasiyadan keçmiş laboratoriyalarla müqavilələr bağlamalıdır.

5.12. Fəaliyyət göstərən istehsalat obyektlərinin ərazisində tikintiyə başlanılması üçün hazırlıq işlərinin aparılması zamanı sifarişçi və podratçı tikintinin rəhbərini təyin edirlər. Bununla belə aşağıdakılar müəyyən edilir və razılaşdırılır:

- tikinti-quraşdırma işlərinin həcmi, texnoloji ardıcıllığı, yerinə yetirilmə müddəti, eləcə də tikinti-quraşdırma işlərinin yenidən qurulan müəssisədə istehsalat sexlərinin və sahələrinin işi ilə uyğunlaşdırılması şərtləri;
- qəza vəziyyəti yaranarkən işçilərin hərəkətləri də daxil olmaqla, operativ rəhbərliyin həyata keçirilməsi qaydası;
- konstruksiyaların və mühəndis şəbəkələrinin sökülməsi və ya digər yerə köçürülməsi ardıcıllığı, müvəqqəti su və elektrik təchizatı şəbəkələrinin qoşulma yerləri və şərtləri, müvafiq çəkilişlərin aparıldığı yerlər;
- müəssisənin xidmətlərindən və onun texniki vasitələrindən inşaatçılar tərəfindən istifadə edilməsi qaydası;
- avadanlıq və materialların komplekt və təxirəsalınmaz şəkildə tədarükü, daşımaların təşkili, yüklərin anbarlara yığılması və inşaat texnikasının müəssisə ərazisində hərəkətinin təmin edilməsi, müvəqqəti tikilinin yerləşdirilməsi və (və ya) fəaliyyət göstərən istehsalat müəssisəsinin ərazisində binaların, qurğuların və ayrıca sahələrin inşası məqsədilə istifadə olunması şərtləri.

## 6. Tikinti işləri

Tikinti işləri podratçı tərəfindən Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyinin, şəhərsalma və tikintiyə dair normativ sənədlərin, layihənin və təşkilati-texnoloji sənədlərin tələblərinə riayət edilməklə yerinə yetirilməlidir.

### 6.1. *Tikinti meydançası*

6.1.1. Tikinti meydançasının sərhədləri tikinti ərazisinin baş planında və vəziyyət planında göstərilməlidir.

6.1.2. Sifarişçinin mülkiyyətində, icarə və ya istifadəsində olan torpaq sahəsindən başqa, əlavə olaraq digər torpaq sahələri (o cümlədən qonşu sahələr) torpaq sahələrinin sahibləri ilə əldə olunmuş razılaşma əsasında tikinti ərazisinə daxil edilə bilər.

6.1.3. Tikinti meydançasının mühafizəsi, tikinti meydançasında əməyin mühafizəsi ilə bağlı tələblərə riayət olunması, ətraf mühitin qorunması, tikinti işlərinin ətraf mühit və əhali üçün təhlükəsizliyi, eləcə də bu AzDTN-lə, digər şəhərsalma və tikintiyə dair normativ sənədlərlə və ya yerli

özünüidarəetmə orqanı tərəfindən müəyyənləşdirilmiş tələblərin yerinə yetirilməsi xərcləri sifarişçi tərəfindən təmin olunur.

6.1.4. Tikinti aparıldığı müddətdə bu AzDTN-nin 6.2.3-cü yarımbəndində nəzərdə tutulan tədbirlər podrat müqaviləsinə əsasən podratçı (baş podratçı) tərəfindən həyata keçirilir.

6.1.5. Sifarişçi tikinti meydançasını podratçıya (baş podratçıya) akt əsasında təhvil verir. Tikinti meydançasının sahəsi və vəziyyəti müqavilənin şərtlərinə uyğun olmalıdır. Sifarişçi müqavilə ilə nəzərdə tutulmuş hallarda və qaydada işlərin yerinə yetirilməsi üçün lazım olan bina və qurğuları podratçının (baş podratçının) istifadəsinə verməli, yüklərin onun ünvanına nəql edilməsini, müvəqqəti enerji, su və digər təchizat şəbəkələrinin çəkilməsini təmin etməlidir.

6.1.6. Podratçı (baş podratçı) tikinti meydançası və bitişik ərazilərin təmizləyərək qaydaya salınmasını təmin etməlidir. Məişət və inşaat tullantıları, eləcə də qar yığını yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarının müəyyənləşdirdiyi müddətdə və qaydada tikinti meydançasından çıxarılaraq kənarlaşdırılmalıdır.

6.1.7. Tikinti ərazisinin baş planı ilə nəzərdə tutulduqda və planın hazırlanması mərhələsində razılaşdırıldıqda, habelə tikintinin aparılması ilə əlaqədar yol hərəkətinin təhlükəsizliyi, insanların həyatı və ya əmlakı üçün təhlükə yarandıqda yol hərəkətinin müvəqqəti məhdudlaşdırılması və ya qadağan edilməsi “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununun 12-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir. Yol hərəkətinin müvəqqəti məhdudlaşdırılması və ya qadağan edilməsi haqqında qərarda yol hərəkətinin məhdudlaşdırılmasının və ya qadağan edilməsinin yeri, səbəbi, vaxtı və şərtləri, qəbul olunan qərar barədə yol hərəkəti iştirakçılarına məlumat verilməsi qaydası, yol hərəkətinin təhlükəsizliyi tədbirləri və işlərin yerinə yetirilməsi müddətləri, zəruri işlərin icrasına cavabdeh olan şəxslər göstərilir. Yol hərəkətinin müvəqqəti məhdudlaşdırılması və ya qadağan edilməsi haqqında qərar təxirəsalınmadan dövlət orqanlarının və əhalinin nəzərinə çatdırılmalıdır.

Yol hərəkətinin müvəqqəti məhdudlaşdırılması və ya qadağan edilməsi haqqında qərar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin yol hərəkəti təhlükəsizliyi Komissiyası tərəfindən qəbul edilir.

6.1.8. Podratçı (baş podratçı) tikinti meydançasının şəhər ərazisinə çıxışlarında nəqliyyat vasitələrinin təkərlərinin təmizlənməsi (yuyulması) məntəqələri, eləcə də tullantıların yığılması üçün xüsusi qurğular və ya bunkerlər yerləşdirməlidir.

Yaşayış məntəqələrinin ərazisində torpaq qazma işləri aparılarkən tozla çirklənməni minimuma endirmək üçün tikinti ərazisinin (hərəkət yollarının), istifadə olunan texnikanın (traktorun çalovunun, yük maşınlarının teknəsinin və s.) səthi suvarılması təmin edilməlidir.

6.1.9. Podratçı (baş podratçı) tikinti işlərinə başlamazdan əvvəl tikinti meydançasını və təhlükəli iş zonalarını hasara almalı və müvafiq xəbərdarlıq nişanları quraşdırılmalıdır. Hasarlar tikinti işlərinin aparılması zamanı tikinti materiallarının və məmulatının tikinti meydançasından kənara düşməsinin qarşısını ala bilməli və işıqlandırılmalıdır.

Tikinti işlərinə başlamazdan əvvəl tikinti ərazisinin görünən hissəsində məlumat lövhəsinin və xüsusi nişanın yerləşdirilməsi sifarişçi tərəfindən təmin edilməlidir. Məlumat lövhəsində aşağıdakılar nəzərdə tutulur:

- tikintiyə icazə vermiş yerli icra hakimiyyəti orqanı haqqında məlumat;
- obyektin təyinatı, sifarişçisi, layihəçisi və podratçısı haqqında məlumat;
- tikintiyə başlanılması və tikintinin başa çatması ilə bağlı müddətlər haqqında məlumat;
- obyektin mərtəbə sayı, qabariti və görünüşü.

Podratçının (baş podratçının) adı və tikinti meydançasından kənarda yerləşən inventar hasarlama lövhələrində, iri qabaritli təchizat elementlərində, kabel barabanlarında və digər yerlərdə də göstərilir.

6.1.10. Tikinti meydançasında tikinti işləri dayandırıldıqda, sifarişçi əhaliyə və ətraf mühitə ziyanın vurulması hallarını istisna edəcək tədbirləri görməlidir (kommunikasiyaların ayrılması, mövcud maye qablarının boşaldılması, təhlükəli və zəhərli maddələrin kənarlaşdırılması və digər). Podratçı (baş podratçı) kənar şəxslərin binaya icazəsiz daxil olmasının qarşısının alınması istiqamətində müvafiq tədbirlər görməlidir.

6.1.11. Tikinti meydançasının daxilində hazırlıq işləri tikinti işlərinin yerinə yetirilməsi layihəsinə uyğun olaraq tikinti-quraşdırma işlərinə başlamazdan əvvəl yerinə yetirilməlidir.

6.1.12. Podratçı (baş podratçı) tikinti işlərinin aparıldığı müddətdə sifarişçinin tikintiyə texniki nəzarəti və layihəçinin müəllif nəzarətini həyata keçirən nümayəndəsinin, habelə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin nümayəndəsinin tikinti meydançasına və inşa edilməkdə olan tikinti obyektinə sərbəst daxil olmasını təmin etməlidir.

6.1.13. Təhlükə potensiallı təbiət və texnogen xarakterli hadisələrin baş vermə ehtimalının yüksək olduğu zonalarda Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və yerli icra hakimiyyəti orqanları tərəfindən mühafizə tədbirlərinin yerinə yetirilməsi müəyyən edilir. Bu tədbirlərin növləri, onların tətbiqi hallarını, habelə təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin tikintisinə icazə ilə bağlı əlavə tələbləri Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

6.1.14. “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununun 17.3-cü maddəsinə əsasən, tikinti layihələrinin icrası nəticəsində götürülən yaşıllıqların miqdarı, növ tərkibi və bərpa dəyəri haqqında məlumat tikinti layihəsinin ekologiya bölməsinə daxil edilir.

6.1.15. Tikinti işlərinin yerinə yetirilməsi prosesində təbii ehtiyatların (faydalı qazıntıların) çıxarılması yalnız müvafiq qaydada razılaşdırılmış və təsdiq edilmiş sənədlər olduqda həyata keçirilə bilər.

6.1.16. Tikinti işlərinin yerinə yetirilməsi zamanı mədəni irs obyektlərinin əlamətləri aşkar edildikdə, podratçı (baş podratçı) tikinti işlərini dərhal dayandırmalı və bu barədə yerli icra hakimiyyəti orqanına, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması və Bərpası üzrə Dövlət Xidmətinə və Azərbaycan Milli Elmlər Akademiyasına məlumat verməlidir. Tikinti işlərinin davam etdirilməsi və zəruri tədbirlərin görülməsi barədə qərar Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən qəbul edilir.

6.2. ***Müvəqqəti tikililər***

6.2.1. Müvəqqəti tikili podratçı (baş podratçı) tərəfindən xüsusi olaraq tikintinin aparılması məqsədilə tikinti meydançasında inşa edilir. Müvəqqəti tikili əsasən yüngül inşaat konstruksiyalarından inşa edilməli və asanlıqla quraşdırılaraq tikinti başa çatdıqdan sonra sökülməlidir.

Tikinti obyektinin tərkibinə daxil olan və tikinti məqsədləri üçün istifadə olunan binalar, qurğular və ya sahələr müvəqqəti tikiliyə aid edilmir.

6.2.2. Müvəqqəti tikili, eləcə də tikinti məqsədlərinə uyğunlaşdırılmış mövcud tikinti obyektlərindəki ayrıca sahələr (yerləşgələr) məişət, istehsalat, inzibati və yaşayış binalarına, qurğu və sahələrə dair şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə, yanğın, sanitar-epidemioloji norma və qaydalarına cavab verməlidir.

6.2.3. Tikinti meydançasında və ya ərazinin sahibi ilə əldə olunmuş razılaşmaya əsasən sifarişçi tərəfindən istifadə olunan ərazidə yerləşən müvəqqəti tikili podratçının (baş podratçının) qərarı ilə istifadəyə verilir. Müvəqqəti tikilinin istifadəyə verilməsi aktla və ya tikinti-quraşdırma işlərinin ümumi jurnalında müvafiq qeydlərlə rəsmiləşdirilir.

6.2.4. Müvəqqəti tikilinin, eləcə də tikinti məqsədlərinə uyğunlaşdırılmış mövcud binalardakı ayrıca sahələrin (yerləşgələrin) vəziyyətinə, onların texniki istismarına görə məsuliyyəti podratçı (baş podratçı) daşıyır.

6.2.5. Tikinti obyektinin inşası məqsədilə yaradılmış müvəqqəti tikili sifarişçinin ərazisində və yaxud yanaşı ərazilərin sahibləri ilə əldə olunmuş razılaşma əsasında sifarişçi tərəfindən istifadə olunan ərazidə yerləşdirilir. Müvəqqəti tikilinin layihəsində tikinti ərazisinin baş planı, müvəqqəti tikilinin və (və ya) sahələrin (yerləşgələrin) tərkibi, elektrik, su, istilik təchizatı və kanalizasiya sxemləri, istifadə olunan bütün nəqliyyat növlərinin hərəkət yollarının sxemi, rabitə təminatı üzrə həllər göstərilməlidir. Müvəqqəti tikilinin layihəsində həmçinin onun sökülməsi, torpağın rekultivasiyası və işlərin xərclər smetası nəzərdə tutulmalıdır.

6.3. ***Tikinti obyektlərinin sökülməsi***

6.3.1 Tikinti obyektlərinin sökülməsi ilə əlaqədar işlər söküntü işlərinin təşkili layihəsinə uyğun olaraq yerinə yetirilməlidir. Söküntü işlərinin təşkili layihəsinə sökülməli olan tikinti obyektlərinin siyahısı, söküntü üsulu, eləcə də tikinti obyektindəki işçilərin, əhalinin, ətraf mühitin və mühəndis infrastrukturunun, o cümlədən mövcud yeraltı kommunikasiyaların təhlükəsizliyinin təmin edilməsi üzrə zəruri texniki həllər daxildir.

6.3.2. Sökülməsi nəzərdə tutulan tikinti obyektləri onların istismardan çıxarılması anından başlayaraq sökülməsi anına qədər təhlükəsiz vəziyyətə, yəni əhaliyə və ətraf mühitə təsadüfən ziyanın vurulması hallarını istisna edəcək vəziyyətə gətirilməlidir (tikinti meydançasının hasarlanması, təchizat müəssisələrinin qabaqcadan məlumatlandırılması, onlar tərəfindən göstərilən xidmətlərin fiziki dayandırılması, kommunikasiyaların ayrılması, mövcud maye qablarının boşaldılması, təhlükəli və zəhərli maddələrin kənarlaşdırılması, dayanıqsız konstruksiyaların gücləndirilməsi və ya sökülməsi və s.). Kənar şəxslərin bu binalara icazəsiz daxil olmalarının qarşısının alınması istiqamətində müvafiq tədbirlər görülməlidir.

6.3.3. Yerli icra hakimiyyəti orqanları və təchizat müəssisələri torpaqda qalmış kommunikasiyalar, yerləşgələr, konstruksiyalar və qurğular barədə müvafiq qaydada məlumatlandırılmalıdır.

6.3.4. İstifadə olunan tikinti materiallarının, məmulat və konstruksiyaların anbarlara yığılması və saxlanılması həmin materiallara, məmulat və konstruksiyalara dair standartların və texniki şərtlərin tələblərinə uyğun olaraq podratçı (baş podratçı) tərəfindən təmin olunur.

Tikinti materiallarının, məmulat və konstruksiyaların anbarlara yığılması və saxlanması ilə bağlı standartların və texniki şərtlərin tələblərinin pozulması halları aşkar edildikdə, podratçı (baş podratçı) aşkar edilmiş pozuntuları dərhal aradan qaldırmalıdır. Müəyyən edilmiş qaydalara uyğun yığılmamış və saxlanılmayan məmulat və materialların podratçı (baş podratçı) tərəfindən istifadəsi edilməsi bu növ məmulat və materiallardan tikintinin keyfiyyətinə ziyan vurulmadan istifadə mümkünlüyünə aydınlıq gətirilənədək dayandırılmalıdır. Düzgün yığılmamış və saxlanılmamış məmulat və materialların qeyd olunan şərtlərlə istifadə olunması məsələsinin həllinə layihəçinin və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin nümayəndələri də cəlb olunur. Bununla əlaqədar qəbul olunmuş qərar sənədləşdirilməlidir.

6.3.5. Söküntü işləri aparılan ərazidə müvəqqəti quyular qazılarkən və ya digər maneələr quraşdırılarkən podratçı (baş podratçı) ərazinin sahibi ilə razılaşdırmaqla ərazidə körpülərin, məhəccərli piyada körpücüklərinin, trapların quraşdırılması yolu ilə nəqliyyat vasitələrinin sərbəst hərəkətini və sakinlərin evlərinə keçidini təmin etməlidir. İşlər yekunlaşdıqdan sonra qeyd olunan qurğular ərazidən çıxarılmalı, ərazi isə abadlaşdırılmalıdır.

6.3.6. Söküntü işlərinin bilavasitə aparıldığı yerlər kənar şəxslərin icazəsiz daxil olmasının qarşısını almaq üçün hasarlanmalıdır. Söküntü işlərinin aparıldığı yerlər, eləcə də müvəqqəti yol və keçidlər işıqlandırılmalıdır.

6.3.7. Təşkilati-texnoloji hallərdə söküntü işlərinin aparılması səbəbindən əhali üçün yarana biləcək narahatlığın maksimum azaldılması nəzərdə tutmalıdır. Bu məqsədlə şəhər ərazisində küçə və yolların kənarı ilə kommunikasiya xətlərinin çəkilməsi qrafikə əsasən yerinə yetirilməlidir. Ərazinin abadlaşdırılması uzununa bir məhəllədən artıq olmayan sahələrdə aparılmalıdır.

**6.4.** ***Tikinti obyektlərinin yenidən qurulması zamanı tikinti işlərinin təşkili***

6.4.1.Tikinti obyektlərinin yenidən qurulması zamanı aparılan tikinti-quraşdırma işləri yenidən qurulan müəssisənin istehsalat fəaliyyətinə uyğunlaşdırılmaqla yerinə yetirilməlidir. Sifarişçi və podratçı razılaşdırılmış işlərin yerinə yetirilmə qaydasını və işlərə operativ rəhbərliyi həyata keçirəcək məsul şəxsi təyin etməlidirlər.

6.4.2. Tikinti obyektləri yenidən qurularkən nəqliyyat kommunikasiyalarından və mühəndis şəbəkələrindən, habelə yükqaldıran avadanlıqdan inşaat və istismar heyəti tərəfindən birgə istifadə olunması nəzərdə tutulmalıdır.

6.4.3. Tikinti obyektlərinin yenidən qurulması zamanı konstruksiyaların, sex və meydança daxilində nəqliyyat vasitələrinin və kommunikasiyaların, avadanlıq və mühəndis şəbəkələrinin texniki vəziyyətinin qiymətləndirilməsi (müayinə) nəticələri, söküntü və tikinti-quraşdırma işlərinin aparılması şərtləri (havada qazın, tozun həddən artıq olması, partlayış və yanğın təhlükəsi, yüksək səs-küy, çətin keçilən məhdud sahələr və s.) nəzərə alınmalıdır.

6.4.4. Sifarişçi və podratçı layihəçi ilə birlikdə:

- tikinti-quraşdırma işlərinin həcmini, texnoloji ardıcıllığını, yerinə yetirilmə müddətlərini, eləcə də tikinti-quraşdırma işlərinin istehsalat sexlərinin və yenidən qurulan müəssisənin sahələrinin işi ilə uyğunlaşdırılması şərtlərini razılaşdırmalı;
- operativ rəhbərliyin həyata keçirilməsi qaydasını, habelə qəza vəziyyətləri yarandıqda inşaatçıların və istismara cavabdeh olan şəxslərin hərəkətlərini müəyyən etməli;
- konstruksiyaların sökülməsi, eləcə də mühəndis şəbəkələrinin sökülməsi və ya köçürülməsi ardıcıllığını, müvəqqəti su, elektrik təchizatı və sair şəbəkələrin qoşulma yerlərini və şərtlərini təyin etməli;

- sifarişinin xidmətlərinin və tikinti-quraşdırma işlərinin yerinə yetirilməsində inşaatçılar tərəfindən istifadə oluna biləcək texniki vasitələrin siyahısını tərtib etməli;
- avadanlıq və materialların komplekt və təxirəsalınmaz qaydada tədarük edilməsi, yüklərin daşınması və yığılması, inşaat texnikasının yenidən qurulan müəssisənin ərazisində hərəkət etməsi, eləcə də mobil (inventar) bina və qurğuların yerləşdirilməsi şərtlərini müəyyənləşdirməlidirlər.

6.5. ***Mövcud yeraltı kommunikasiyaların yerləşdiyi sahələrdə tikinti işlərinin aparılması***

6.5.1. Mövcud yeraltı kommunikasiya və qurğuların yerləşdiyi sahələrdə torpaq qazma işləri bu kommunikasiyaların balans saxlayıcıları tərəfindən aşağıdakı əlavə şərtlərə riayət etməklə yerinə yetirilməlidir.

6.5.2. Podratçı (baş podratçı) üç iş günündən gec olmayaraq təchizat müəssisələrinin nümayəndələrini və layihəçini işlərin bilavasitə aparıldığı yerə çağırmalıdır.

6.5.3. Tikinti işlərinin aparıldığı yerə gələn təchizat müəssisəsinin nümayəndəsinə layihə təqdim olunur, qazılacaq çalanın naturaya çıxarılmış oxları və ya qabaritləri göstərilir. Təchizat müəssisəsinin nümayəndəsinin iştirakı ilə mövcud yeraltı kommunikasiya və qurğuların faktiki yerləşməsi yerindəcə təyin olunur (şurflama və ya digər kəşfiyyat üsulu ilə), ərazidə nişanlanır və işçi cizgilərinə köçürülür. Təchizat müəssisəsinin nümayəndələri podratçıya (baş podratçıya) mövcud yeraltı kommunikasiyaların və qurğuların qorunub saxlanması ilə bağlı görüləcək tədbirlər və çalaların doldurulması zamanı üstü örtülən işlərin yoxlanılması üçün nümayəndələrin çağırılmasının zəruri olması barədə müvafiq göstərişlər verirlər.

Qeyd olunan məqsədlə tikinti meydançasına gəlməyən və balanslarında olan yeraltı kommunikasiya və qurğuların tikinti ərazisində aşkar edilib-edilməməsi barədə məlumat təqdim etməmiş təchizat müəssisəsinin nümayəndələri yeraltı kommunikasiya və qurğuların səthlərinin açılmasından bir gün əvvəl təkrar olaraq əraziyə çağırılırlar. Müvafiq qərar qəbul edilməyənə qədər yeraltı kommunikasiya və qurğuların səthlərinin açılması və onların digər əraziyə köçürülməsi işlərinə başlamaq qadağandır.

Podratçı (baş podratçı) torpaqqazan qurğunun maşinistini torpaq-qazma işlərinin aparılması barədə təlimatlandırmalı və qruntun mexaniki işlənməsi üçün yolverilən zonanın hüdudlarını kabinadan aydın seçilən nişanlarla işarələməlidir. Yeraltı qurğuya bilavasitə bitişik olan qrunt kütləsi əl ilə işlənilir.

6.5.4. Podratçı (baş podratçı) Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyinə uyğun olaraq aşağıdakı icra sənədlərini aparmalıdır:
- tikinti obyektinin geodezik bölgü əsasının yoxlanılması barədə aktlar;

- tikinti obyektinin oxlarının tikinti sahəsində nişanlanması (yerləşdirilməsi) haqqında aktlar;
- üstü örtülən işlərin yoxlanılması aktları;
- yükdaşıyan konstruksiyaların müayinəsi aktları;
- mühəndis-texniki təminat şəbəkələrinin hissələrinin yoxlanılması aktları;
- işçi cizgiləri (naturada yerinə yetirilmiş işlərin işçi cizgilərinə uyğunluğu və ya tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə məsul olan şəxslər tərəfindən işçi cizgilərinə edilmiş dəyişikliklər barədə qeydlər aparılmaqla);
- geodezik sxemlər və cizgilər;
- mühəndis-texniki təminat şəbəkələrinin sxemləri və profilləri;
- texniki qurğuların sınaq aktları;
- ekspertizaların nəticələri, həmçinin yerinə yetirilmiş işlərin müayinə, laboratoriya və digər sınaq nəticələri;
- tikintidə istifadə olunan inşaat materiallarının keyfiyyətinə nəzarətin aparılmasını təsdiq edən sənədlər (beton və armaturun sınaq aktları və s.).

6.5.5. Keyfiyyət göstəriciləri tikinti obyektinin təhlükəsizliyinə təsir göstərən işlər və konstruksiyalar hazır olduqda, lakin tikintinin texnologiyasına görə növbəti işlər yerinə yetirildikdən sonra bu göstəricilərin yoxlanılması mümkün olmadıqda, podratçı (baş podratçı) razılaşdırılmış müddətdə, lakin üç iş günündən gec olmayaraq sifarişçini, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və müəllif nəzarətinin nümayəndələrini uyğunluğun qiymətləndirilməsi müddətləri barədə məlumatlandırır.

Uyğunluğun qiymətləndirilməsi yolu ilə aşkar edilmiş qüsurlar müvafiq aktlar tərtib edilməklə aradan qaldırılmalıdır.

Aşkar edilmiş qüsurlar aradan qaldırılmayanadək və müvafiq aktlar tərtib edilməyənədək tikinti işləri davam etdirilə bilməz.

6.6. ***Tikintinin dayandırılması və tikinti obyektin konservasiyası***

6.6.1. Dövlət və ya bələdiyyə vəsaiti hesabına maliyyələşdirilən obyektlərin tikintisi 3 aydan artıq müddətə dayandırıldıqda tikintisi başa çatmamış obyektlərin konservasiyası, yəni insanların və ətraf mühitin təhlükəsizliyinin təmin edilməsi, tikinti obyektinin və tikinti ərazisinin mühafizəsi üzrə zəruri tədbirlərin həyata keçirilməsi təmin edilməlidir.

6.6.2. Tikintinin dayandırılması haqqında qərar sifarişçi tərəfindən qəbul olunur. Obyektin tikintisinin dayandırılması haqqında qərar qəbul etmiş sifarişçi podratçını, yerli icra hakimiyyəti orqanını və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyini bu barədə məlumatlandırır. Tikintisi dayandırılmış obyektin təhlükəsizliyinə görə məsuliyyəti sifarişçi daşıyır.

Sifarişçi və podratçı (baş podratçı) bir aydan gec olmayaraq obyektdə yerinə yetirilmiş işlərin qəbulu haqqında akt tərtib edir, obyektin vəziyyətini qiymətləndirir, yerinə yetirilmiş işlərin həcmini və dəyərini göstərir, obyektdə istifadə olunmuş (quraşdırılmış) və ya istifadə olunmamış və saxlanılmalı olan avadanlığın, material və konstruksiyaların siyahısını hazırlayır, tikinti meydançasının, obyektin və istifadə olunmamış avadanlığın, material və konstruksiyaların mühafizəsi ilə bağlı görüləcək tədbirləri müəyyən edirlər.

6.6.3. Layihəçi sifarişçi ilə müqavilə bağlamaqla tikintisi başa çatmamış obyektin konservasiyası ilə bağlı işçi cizgilərini və smetanı tərtib edir, podratçı (baş podratçı) isə həmin cizgilərlə və smeta ilə nəzərdə tutulmuş işlərin yerinə yetirilməsini təmin edir.

6.6.4. Konservasiya olunmuş obyekt və tikinti meydançası akt əsasında sifarişçiyə təhvil verilir. Akta icra sənədləri, iş jurnalları, tikinti zamanı aparılmış müayinələr, yoxlamalar, nəzarət sınaqları, ölçmələr haqqında sənədlər, habelə materialların, işlərin, konstruksiyaların, texnoloji avadanlığın və obyektin mühəndis sistemlərinin tikinti layihəsinə və şəhərsalma və tikinti normativ sənədlərinin tələblərinə uyğunluğunu təsdiq edən sənədlər əlavə olunur.

6.7. ***Mexanizasiya və nəqliyyat***

6.7.1. Tikinti obyektinin inşası zamanı tikinti, quraşdırma və xüsusi tikinti işlərinin mexanizasiyası kompleks şəkildə təmin olunmalı və inşaat maşınlarının, avadanlıqlarının, kiçik mexanizasiya vasitələrinin, lazımi quraşdırma ləvazimatlarının, inventar və cihazların dəstləri ilə həyata keçirilməlidir.

Tikinti-tamamlama maşınları, avadanlıqlar, alətlər, texnoloji ləvazimatlar da daxil olmaqla, beton, quraşdırma, daş, suvaq, sanitar-texniki, hidroizolyasiya, boyaq, şüşə və digər tikinti işlərinin yerinə yetirilməsi üçün lazım olan kiçik mexanizasiya vasitələri yerinə yetirilən işlərin texnologiyasından asılı olaraq normalarla komplektləşdirilmişdir.

6.7.2. Nəqliyyatın işinin təşkilinə dair məsələlər inşaat materiallarının, konstruksiyalarının, detal və avadanlığının çatdırılması sxemləri seçilərkən, obyektin tikintisi ilə, eləcə də yükboşaltma bazalarının, dəmiryolu stansiyalarının, çay və dəniz limanlarının, gəmilərin yan alması üçün nəzərdə tutulmuş körpülərin və hava limanlarının fəaliyyəti ilə texnoloji əlaqədə nəqliyyat vasitələrinə olan tələbat qrafikləri əsaslandırılarkən və tərtib edilərkən tikintinin təşkili layihəsində həll olunmalıdır.

## 7. Tikintinin təhlükəsizlik tələblərinə nəzarət. Tikintiyə nəzarət.

7.1. Tikinti fəaliyyətinin subyektləri, yəni podratçı (baş podratçı), sifarişçi, layihəçi tikinti-quraşdırma işlərinin, tikinti obyektinin konstruksiyalarının,

mühəndis-texniki təminat sistemlərinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə və tikinti layihəsinə uyğunluğunu qiymətləndirmək məqsədilə Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada tikintiyə nəzarəti həyata keçirməlidirlər.

Podratçı (baş podratçı) tikintiyə nəzarət çərçivəsində aşağıdakıları yerinə yetirir:

- sifarişçi tərəfindən təqdim olunmuş layihə sənədlərinin yoxlanılmasını;
- tikinti obyektinin geodezik bölgü əsasının yoxlanılmasını;
- istifadə olunan tikinti materiallarının, məmulat, konstruksiya və avadanlığın yoxlanılmasını;
- tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi prosesində və yekununda daxili əməliyyat nəzarətini;
- növbəti işlərin yerinə yetirilməsinə başladıqdan sonra nəticələri nəzarət üçün əlçatmaz olan işlərin (üstü örtülən işlərin) yoxlanılmasını;
- yükdaşıyan konstruksiyaların və mühəndis-texniki təminat sistemlərinin hissələrinin yoxlanılmasını;
- texniki qurğuların sınaqdan keçirilməsini.

Qüvvədə olan qanunvericiliyə uyğun olaraq sifarişçinin tikintidə nəzarəti (texniki nəzarət) podrat müqaviləsi əsasında işlərin yerinə yetirilməsinə nəzarət və işlərin keyfiyyətinin yoxlanılması formasında həyata keçirilir.

Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyinə uyğun olaraq layihəçi tərəfindən tikintiyə müəllif nəzarəti həyata keçirilir.

7.2. Layihə sənədlərinin yoxlanılması mərhələsində tikinti layihəsinin Məcəllənin 83-cü maddəsində nəzərdə tütülmüş bütün bölmələri təhlil edilməli və aşağıdakılar yoxlanmalıdır:

- sənədlərin tamlığı;
- layihə üzrə oxların ölçülərinin və geodezik əsaslarla müəyyən edilmiş reperlərə uyğunluğu;
- müvafiq razılaşdırma və təsdiqlənmələrin olması;
- tikintində istifadə ediləcək tikinti materiallarının və məmulatının spesifikasiyası (təsnifatı və xarakteristikası);
- yoxlanılan parametrlərin faktiki dəqiqliyinə tələblərin irəli sürülməsi;
- nəzarət və ölçmə üsulları haqqında qeydlərin olması - müvafiq normativ sənədlərə istinadlar göstərilməklə.

Çatışmazlıqlar aşkar edildikdə sənədlər müqavilədə göstərilmiş müddətdə yenidən işlənmək üçün geriyə qaytarılır.

7.3. Podratçı sifarişçi tərəfindən ona təqdim olunmuş geodezik bölgü əsasını qəbul edir, onun müəyyən edilmiş dəqiqlik tələblərinə uyğunluğunu, nişanların ərazidə yerləşdirilmə etibarlığını yoxlayır. Geodezik bölgü əsasının sifarişçidən təhvil alınması müvafiq aktla sənədləşdirilməlidir.

7.4. Tikinti materiallarının və məmulatının sertifikatlaşdırılmasının mötəbərliyinə, habelə təhlükəsizlik tələblərinə uyğunluğuna əsaslı şübhələr

olduğu hallarda, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin tələbinə əsasən həmin tikinti materialları və məmulatı nümunələrinin standartlara uyğunluğu müvafiq qaydada akkreditasiyadan keçmiş laboratoriyalar tərəfindən yoxlanılır. Yoxlama sifarişçinin və ya onun təyin etdiyi texniki nəzarətçinin bilavasitə iştirakı ilə həyata keçirilir. Yoxlamanın nəticələri barədə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinə məlumat verilir.

Yoxlamanın nəticələri yoxlama aktı ilə və (və ya) laboratoriya sınaqları jurnallarında sənədləşdirilməlidir.

Ölçmə işləri ölçmələrin vəhdətinin təmin edilməsi üzrə normativ sənədlərin (metroloji qayda və normaların) tələblərinə uyğunluğu təsdiq edilmiş və dövlət sınaqlarından keçirilməklə tipi təsdiq edilmiş ölçmə vasitələrindən istifadə edilməklə aparılmalıdır. Ölçmələrin nəticələri Azərbaycan Respublikasında kəmiyyət vahidi kimi qəbul edilmiş vahidlərlə ifadə olunmalıdır.

7.5. Müəyyən edilmiş tələblərə cavab verməyən tikinti materialları və məmulatı yararlılardan ayrılmalı və nişanlanmalıdır. Tələblərə cavab verməyən tikinti materiallarının və məmulatın istifadəsi qadağan edilməli, işlərin dayandırılması və səbəbləri barədə sifarişçiyə məlumat verilməlidir.

7.6. Podratçı daxili əməliyyat nəzarəti ilə aşağıdakıları yoxlayır:

- icra olunan texnoloji əməliyyatların ardıcıllığının və tərkibinin texnoloji sənədlərə və şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğunluğunu;
- texnoloji xəritələrlə və reqlamentlərlə müəyyən edilmiş texnoloji rejimlərə riayət olunmasını;
- əməliyyatların keyfiyyət göstəricilərinin və nəticələrinin layihə, normativ və texnoloji sənədlərə uyğunluğunu.

Nəzarət əməliyyatlarının aparılması üçün seçilən yerlər, əməliyyatların aparılma tezliyi, icraçıları, ölçmələrin üsul və vasitələri, nəticələrin qeydə alınması formaları və müəyyən edilmiş tələblərə uyğunsuzluqlar aşkar edildikdə qərarların qəbulu qaydası layihə, texnoloji və normativ sənədlərin tələblərinə uyğun olmalıdır.

Daxili əməliyyat nəzarətinin nəticələri iş jurnallarına daxil edilməlidir.

7.7. Nəticələri obyektin təhlükəsizliyinə təsir göstərən, lakin qəbul olunmuş texnologiyaya görə işlərin növbəti mərhələsini başladıqdan sonra yoxlanılması mümkün olmayan işlər (üstü örtülən işlər) tikinti prosesində yoxlanılmalıdır. İşlərin, konstruksiyaların və mühəndis şəbəkələrinin hissələrinin yoxlanılmasında Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin nümayəndələri, müəllif nəzarətini həyata keçirən layihəçinin nümayəndələri, eləcə də müstəqil ekspertlər iştirak edirlər. Podratçı (baş podratçı) tikinti fəaliyyətinin digər subyektlərini razılaşdırılmış müddətdə, lakin üç iş günündən gec olmayaraq aparılacaq yoxlamalar barədə

məlumatlandırır.

7.8. Yerinə yetiriləcək sonrakı işlərlə üstü örtülən işlərin yoxlanılması nəticələri tikinti layihəsinə və şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun olaraq üstü örtülən işlərin yoxlanılmasına dair aktlarla rəsmiləşdirilir. Sifarişçi aşkar edilmiş qüsurlar aradan qaldırıldıqdan sonra təkrar yoxlamanın aparılmasını tələb edə bilər.

7.9. Ayrı-ayrı konstruksiyaların, konstruksiya bölmələrinin (mərtəbələrin) tikinti layihəsinə uyğunluğu qiymətləndirilərkən podratçı (baş podratçı) bu konstruksiyaların tərkibinə daxil olan bütün üstü örtülən işlərin yoxlanılmasına dair aktları, geodezik icra sxemlərini, eləcə də layihə sənədləri və tikinti podratı müqaviləsi ilə nəzərdə tutulmuş hallarda konstruksiyaların sınaq protokollarını təqdim etməlidir. Sifarişçi podratçı tərəfindən təqdim olunan geodezik icra sxemlərinin düzgünlüyünü yoxlaya bilər. Bu məqsədlə podratçı (baş podratçı) naturada verilmiş bölgü oxlarını və montaj səmtlərini təhvil-təslim bitənədək saxlamalıdır.

Ayrı-ayrı konstruksiyaların yoxlama nəticələri yükdaşıyan konstruksiyaların müayinəsi aktları ilə rəsmiləşdirilməlidir.

7.10. Mühəndis şəbəkələrinin hissələri və quraşdırılmış mühəndis avadanlığı şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun olaraq sınaqdan keçirilir və nəticələri aktlarla rəsmiləşdirilir.

7.11. Tikintiyə nəzarətin aparılması zamanı işlərdə, konstruksiyalarda, mühəndis şəbəkələrinin hissələrində qüsurlar aşkar edildikdə, bu barədə aktlar yalnız aşkar edilmiş qüsurlar aradan qaldırıldıqdan sonra tərtib olunur.

Yerinə yetirilməli olan sonrakı işlərə mərhələlərlə qəbulun yekunlaşması anından altı aydan artıq müddət keçdikdən sonra başladıqda, işlərin bərpası ilə bağlı proseduralar təkrar olaraq müvafiq aktlarla sənədləşdirilməlidir.

7.12. Sifarişçi tikintiyə nəzarət zamanı aşağıdakıları yerinə yetirir:

- istifadə olunan materialların, məmulat və avadanlığın keyfiyyətinə dair sənədlərin (müəyyən edilmiş hallarda sertifikatların), ilkin yoxlama və laboratoriya sınaqlarının sənədləşdirilmiş nəticələrinin podratçıda (baş podratçıda) olmasını yoxlayır;
- istifadə olunan materialların, məmulat və avadanlığın yığılması və saxlanması qaydalarına podratçı (baş podratçı) tərəfindən riayət olunmasına nəzarət edir; bu qaydalar pozulduqda sifarişçinin tikintiyə nəzarəti həyata keçirən nümayəndəsi düzgün yığılmamış və saxlanılmayan materialların istifadəsini qadağan edir;
- üstü örtülən işlərin aktlaşdırılmasında iştirak edir;
- podratçı (baş podratçı) tərəfindən aparılan daxili əməliyyat nəzarətinin bu AzDTN-nin 7.6-cı bəndinin tələblərinə uyğunluğunu yoxlayır;
- icra sənədlərini və sənədlərin podratçı (baş podratçı) tərəfindən düzgün aparılmasını, eləcə də inşa edilmiş konstruksiyaların geodezik icra sənədlərinin düzgünlüyünü yoxlayır (elementlərin dəqiq yerləşdirilməsinin

seçmə üsulla yoxlanılması);

- tikinti prosesində aşkar edilmiş layihə sənədlərindəki qüsurların aradan qaldırılmasını yoxlayır, qüsurlu sənədləri layihəçiyə qaytarır, düzəlişlər edilmiş sənədləri qəbul edir və təkrarən yoxlayır;
- Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və yerli icra hakimiyyəti orqanının göstərişlərinin podratçı (baş podratçı) tərəfindən yerinə yetirilməsini yoxlayır;
- qəza haqqında Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və yerli icra hakimiyyəti orqanına, sifarişçiyə və layihəçiyə dərhal məlumat verir və qəzanın səbəblərinin araşdırılması məqsədilə qəza ərazisinin mühafizəsini təmin edir;
- yerinə yetirilmiş işlərin, konstruksiyaların, mühəndis şəbəkələrinin uyğunluğunu qiymətləndirir (podratçı ilə birlikdə), uyğunluğu təsdiq edən ikitərəfli aktları imzalayır;
- ikitərəfli aktların imzalanmasına qədər sonrakı işlərin yerinə yetirilməsinin yolverilməzliyi barədə tələblərin podratçı tərəfindən yerinə yetirilməsinə nəzarət edir;
- tikintisi başa çatmış obyektin qanunvericiliyin, layihə, şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğunluğunun yekun qiymətləndirilməsini aparır (podratçı ilə birlikdə).

7.13. İnşa edilən obyektlərdə müəllif nəzarətinin aparılması qaydaları və tikintidə müəllif nəzarətini aparan layihəçinin vəzifələri Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyi ilə müəyyən edilir.

7.14. Sifarişçinin tikintidə nəzarəti həyata keçirən nümayəndələrinin iradları ümumi və xüsusi iş jurnallarına, layihəçinin müəllif nəzarəti üzrə nümayəndələrinin iradları isə müəllif nəzarəti jurnalına daxil edilir. Bu nümayəndələrin iradları əsasında qüsurların aradan qaldırılması onların iştirakı ilə sənədləşdirilir.

7.15. Tikintidə dövlət nəzarəti Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda müvafiq qanunvericiliyə və digər normativ hüquqi aktlara (Əlavə A) uyğun olaraq aparılır.

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tikinti işlərinin başlanması haqqında sifarişçidən məlumat aldıqdan sonra konkret obyektdə tikinti prosesinin uyğunluğunu qiymətləndirir.

# Əlavə A

## Normativ hüquqi aktlar

1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi

2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi

3. "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu

4. Azərbaycan Respublikasında Qüvvədə olan Tikinti Normativ sənədlərinin Siyahısı

5. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 349 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"

6. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 348 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları"

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 mart tarixli 56 nömrəli Qərarı ilə təsdiq edilmiş "Torpaq sürüşməsi olan ərazilərin müəyyən edilməsi və bu ərazilərdə tikinti işlərinin məhdudlaşdırılmasına dair əlavə tədbirlər haqqında"

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il tarixli 14 may tarixli 146 nömrəli qərarı ilə təsdiq edilmiş "Mühəndis-axtarış işlərinin yerinə yetirilməsi Qaydaları"

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il tarixli 18 fevral tarixli 48 nömrəli qərarı ilə təsdiq edilmiş "Tikinti layihəsinin texnologiya bölməsinin hazırlanması tələb olunan hallar"

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 04 sentyabr tarixli 158 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhərsalma sənədlərinin tərkibi, tərtibatı, razılaşdırılması, dövlət ekspertizası aparılması və təsdiq olunması Qaydaları və şəhərsalma fəaliyyətinə, o cümlədən şəhərsalma sənədlərinin həyata keçirilməsində sifarişçinin, tərtibatçının və podratçının fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydaları"

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 sentyabr 2000-ci il tarixli 160 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təsdiq olunmuş şəhərsalma sənədləri üzrə yeni obyektlərin yerləşdirilməsi, bina və qurğularda yenidən planlaşdırma aparılması, mövcud şəhərsalma obyektlərində dəyişikliklər edilməsinin tərtibatçılarla və sənədləri təsdiq edən müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılması Qaydaları"

12. AzDTN 2.6-1 "Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması", Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsinin Kollegiya iclasının 12 oktyabr 2001-ci il tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmişdir

13. AzDTN 1.7-1 "Bina və qurğuların yükdaşıyan inşaat konstruksiyalarının müayinəsi Qaydaları", Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 26 avqust 2008-ci il tarixli, 68 №-li əmri ilə təsdiq edilmişdir

14. AzDTN 2.6-2 "Şəhərsalma əsaslandırılmasının tərkibi, məzmunu, işlənməsi və təsdiqi", Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 13 yanvar 2009-cu il tarixli 03 №-li əmri ilə təsdiq edilmişdir.

---

**Əsas sözlər:** tikinti obyektləri, tikintinin təşkili, tikintiyə icazə, sifarişçi, podratçı, layihəçi, tikintiyə nəzarət, müəllif nəzarəti, tikintidə dövlət nəzarəti, tikinti obyektinin istismarına icazə

---

# Mündəricat

1. Tətbiq sahəsi ....................................................................................1
2. Normativ istinadlar ...........................................................................1
3. Termin və təriflər ..............................................................................1
4. Ümumi müddəalar .............................................................................2
5. Tikintiyə hazırlıq ...............................................................................5
5.7. Tikinti layihəsinin tikinti işlərinin təşkili və texnologiya bölməsinə aid olan sənədlər ..............................................................................................6
6. Tikinti işləri .........................................................................................9
6.1. Tikinti meydançası .........................................................................10
6.2. Müvəqqəti tikililər ..........................................................................12
6.3. Tikinti obyektlərinin sökülməsi ......................................................13
6.4. Tikinti obyektlərinin yenidən qurulması zamanı tikinti işlərinin təşkili ..............................................................................................................14
6.5. Mövcud yeraltı kommunikasiyaların yerləşdiyi sahələrdə tikinti işlərinin aparılması ...........................................................................................15
6.6. Tikintinin dayandırılması və obyektin konservasiyası....................16
6.7. Mexanizasiya və nəqliyyat .............................................................17
7. Tikintinin təhlükəsizlik tələblərinə nəzarət. Tikintiyə nəzarət ...........17
Əlavə (A) ...............................................................................................22